***Samir Səyyadoğlu***

***Haqqımızdı öyünmək***

Sən elə bir ocaqda göz açdın ki, bir bahar,
Nəfəsin nur gətirdi bu torpağa, bu elə.
Ömürlərə sığmayan əzəmətli ömrün var,
Yaşadın, yaşayırsan, yaşayacaqsan belə.

Tarix bizi yazmadı, tarixi bizlə yazdın,
Salnamələr yaratdın Tanrından ilham alıb.
AZƏRBAYCAN adını silinməz izlə yazdın,
Sayəndə bayrağımız zirvələrdə ucalıb.

Nüfuzumuz da sənsən, şöhrətimiz də sənsən,
Bizi səndən tanıyır görüb tanımayanlar.
Qürurumuz da sənsən, hörmətimiz də sənsən,
Baş əyirlər önündə xidmətini duyanlar.

Bizə əmanətindi zirvələrdə görünmək,
İlhamlı zəfərlərə verəcək canımız var.
Sinəmizi gərərək haqqımızdı öyünmək,
Bizə HEYDƏR yetirən Azərbaycanımız var.

***Səyyadoğlu S. Haqqımızdı öyünmək // Yeni Azərbaycan. – 2013. – 9 may. - № 82. – S. 11.***